*“Metafizika” Journal*
*2022, vol 5, issue 2, serial 18, pp.29-36*

**UOT:** 159.9.
**KBT:** 84.4

# Androloji problemlərin yaranmasında psixoloji aspektlərin rolu

**İlkin Əliyev***

**Abstrakt.** Məqalədə cinsi problemlər, eləcə də evli cütlüklər arasında cinsi əlaqəyə təsir edən amillərlə bağlı ümumi statistik məlumatlar verilmişdir. Kişilərdə androloji problemlərin yaranmasına təsir edən amillərdən bəhs edilmişdir. Bu problemlərin yaranmasında xüsusi rol oynayan psixoloji aspektlər geniş müzakirə olunmuşdur.

**Açar sözlər:** andrologiya, androloji problemlər, cinsi münasibətlər, cinsi münasibətlərdəki narahatlıqların səbəbi.

## 1.Giriş

Dünyanın fərqli bölgələrində, fərqli mədəniyyətlər və ölkələrdə aparılan araşdırmalar androloji problemlərin çoxluq təşkil etdiyini göstərir. Aparılan çoxsaylı araşdırmaların dəyərləndirilməsi zamanı demək olar ki, hər üç nəfərdən birinin həyatının müəyyən dönəmində ən az bir cinsi problem yaşadığı müəyyən edilmişdir. Son illərdə androloji xəstəliklər daha çox yayılmışdır. Gündəlik stresslər, ekoloji vəziyyətin dəyişilməsi, zərərli vərdişlər, düzgün olmayan qidalanma və cinsi infeksiyaların çoxluğu və s. androloji problemləri artıraraq kişilərin həyatına mənfi təsir göstərir. Statistik məlumatlar göstərir ki, cütlüklərdə rast gəlinən sonsuzluq hallarının 50%-i kişilərlə əlaqədardır.

Cinsəlliyə fərqli aspektlərdən baxmaq olar. Bunlardan ən əsası bioloji, psixoloji və sosioloji baxış sferasıdır. Bioloji baxış sferası-cinsi funksiyalar, başda mərkəzi sinir sistemi, beş duyğu orqanları və genital orqanlar olmaqla bütün bədənin iştirak etdiyi və bədənin istehsal etdiyi 30-dan çox hormon və kimyəvi maddənin iştirakı ilə baş verən mürəkkəb bir prosesdir. Bu səbəblərdə başda xəstəliklər olmaqla istifadə olunan dərmanlar və bədənimizə təsir edən xarici təsirlər cinsəlliyə təsir edən bioloji faktorlardır. Psixoloji baxış- sağlam işləyən bir bədən normal cinsi münasibətlərin olması

* Bakı Dövlət Universitetinin “Psixologiya” kafedrasının doktorantı; Bakı, Azərbaycan
E-mail: psixoloq.aliyev94@mail.ru
https://orcid.org/0000-0002-7516-4857

**Məqaləyə istinad:** Əliyev, İ. [2022]. Androloji problemlərin yaranmasında psixoloji aspektlərin rolu. *“Metafizika” jurnalı, 5*(2), səh.29-36.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 04.03.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 11.04.2022*
*Çapa qəbul edilmişdir: 03.06.2022*

üçün təməlləri hazırlayır. Cinsi münasibətin necə yaşanacağını, kiminlə, nə zaman, hansı şərtlər altında yaşanacığını və necə oyandırılıb, necə tamamlanacağını müəyyən edən isə insan psixologiyasıdır. Cinsi funksiyalar əsasən mərkəzi və periferik sinir sistemi vasitəsiylə idarə olunur. İnsan psixologiyasını formalaşdıran təməl ünsürlər-xarakter xüsusiyyətləri, duyğular, koqnitiv proseslər, keçmiş yaşantılar, travmalar və öyrənilmiş davranış modelləri insanin cinsi münasibətlərini və cinsəlliyə yanaşmasını tənzim edən əsas faktorlardır. Sosioloji baxış- insanların böyüdüyü ailə, yaxın mühit, mədəniyyət, adətlər və dini inanclar insanların cinsi münasibətlərin: tənzimləyən əsaslardandır. Bəzi hallarda sosiomədəni faktorlar cinsi münasibətlərdə pozuntuların yaranmasında əsas rol oynaya bilir.

Androloji problemin yaranmasında psixoloji amillərin rolunun olduğu Heiman (2002), Meston və Rellinin (2008), Segraves və Althof (2002) və digərləri tərəfindən araşdırılmışdır. Nəticədə kişilərdə psixoloji aspektlərdən yaranan androloji problemlerin müxtəlif olduğu müəyyənləşdirilmişdir. Bunları aşağıdakı şəkildə qruplaşdıra bilərik.

**2.Cinsi münasibətlər qurmaqda çətinliklər**

Böyüdülmə şəraiti və ənənəvi kişi cinsi rolu: Oğlan uşaqları böyüdülərkən kişi olmaqla bağlı bəzi məsələləri cəmiyyətdən öyrənirlər. Bunların bir qismi hər zaman cinsi münasibət istəyi və seks maşını kimi cinsi münasibətə hazır olmaqdır. Kişilər qadınları ələ keçirmək və arzularını reallaşdırmaq üçün yetişdirilirlər və cinsi münasibətlərlə sevgini bir-birindən ayırmaq məcburiyyətində qalırlar. Kişilər cinsi münasibət qurulacaq qadınla hörmət edib ailə quracağı qadınları bir-birindən ayırmağa meyllidirlər. Buna görə də bir qadını sevdikdə onunla cinsi münasibətlər qurmaqda çətinlik çəkirlər. Cinsi münasibət qurmaqda çətinliklərə səbəb olan digər bir psixoloji amil isə ənənəvi cinsi rollardan kənara çıxmamaqdır. Ənənəvi kişi rolu kişiləri həyat yoldaşları ilə ümümi münasibətlərdə olduğu kimi cinsi həyatda da aktiv və qərar verici olmağa məcbur edir. Əlavə olaraq kişi hər zaman cinsi münasibətdə ola biləcəyini və qadını rədd etməməli olduğunu düşünür. Həqiqətlər bu formada olmadığı üçün bir çox kişi ənənəvi kişi rolunu oynamaq üçün özünü məcbur edir və ortaya çıxan problemləri ***"müvəffəqiyyətsizlik"*** olaraq qəbul edir. Sürətlə artan müvəffəqiyyətsizlik qorxusu isə təşvişə səbəb olduğu üçün cinsi münasibətlərdə problemlər yaradır. Həmçinin bu problemin yaranma səbəblərindən biri də ana və ata ilə münasibətlərdir. Şüuralti olaraq anaya sevginin olması və ya ataya qarşı düşmənçilik hissləri kişinin cinsi partneri ilə münasibətlərində problemlərə səbəb olur. Ən sadə halda ereksiya (*şüuraltı olaraq anaya bəslənən sevgi*) funksiyasının pozulması anaya şüuraltı olaraq bağlılığa əsaslanır. Qatı və

cəzalandırıcı atası olan oğlan uşaqlarında cinsi həzz almaq şüuraltı olaraq ata tərəfindən cəzalandırılmaq qorxusuna və dolayısı ilə cinsi münasibətlərdə problemə səbəb olur. Cinsi fobiyalar öz növbəsində cinsi münasibətlərdə çətinliklər yaradır. Qadınlarda olduğu kimi kişilərdə də cinsi münasibətin bəzi tərəflərindən qaçma halı müşahidə oluna bilir. Bəzi kişilər partnyorun tüklərindən, cinsi orqandan gələn qoxudan və ya hər hansı xəstəlik nəticəsində yaranan axıntılardan narahatlıq hiss edir və bu hallarla qarşılaşmamaq üçün münasibətdən qaça bilirlər [2. s.206]. Yetərsiz və səhv bilgilər, stereotiplər və inanclar da cinsi münasibətlərdə çətinliyə səbəb olur. Bir öncəki nəsildən və ya yaşıdlardan əldə olunan cinsi məlumatlar əsasən əskik, yetərsiz və ya səhv məlumatlardır. Bir çox pasientdə bu məlumatların yeniyetməlik dövrü edilən zarafatlar və ya yanlış informasiyalardan qaynaqlandığı görülmüşdür. Bədən haqqında neqativ fikirlər və özgüvən əskikliyi nə qədər maraqlı səslənsə də kişilərdə də bəzən bu kimi fikirlər yaranır və cinsi münasibətlərdə problemlərin olması fikri bir dəfə yarandıqdan sonra kişinin bu probleminin daha çoxalmasına və pisləşməsinə səbəb ola bilir. Belə olduqda onlar münasibət qurmaqda çətinliklər çəkməyə başlayırlar. Həmçinin şəxsiyyət pozuntularını da qeyd etməliyik. Şizoid şəxsiyyət pozuntusu, uşaqlıq dövründə ana ilə yaxın duyğusal və fiziki münasibəti olmayan kişilərin bir qadınla cinsi yaxınlıq və münasibət istəyi az ola bilər. Bu kişilər tək başına müəyyən cinsi aktivlik göstərdikləri halda bir partnyorla cinsi münasibət istəyi hiss etməyə bilirlər. Analarına qarşı bağımlı olan kişilər həyat yoldaşı və ya sevgilisi ilə fiziki və duyğusal yaxınlıq etdiyi və bundan həzz ala bildiyi halda cinsi münasibətə girmək istəməyə bilirlər. Anasına və həyat yoldaşına hədsiz düşkünlüyü olan bu kişilər dəstək və şəfqət axtarışında olur və yetişkinliyin tələb etdiyi cinsi münasibətlərə girməkdən qaçırlar.

**3.Erkən boşalma və ereksiya problemləri**

Erkən boşalma ən az 59 yaşından əvvəl kişilər arasında ən çox yayılan cinsi funksiya pozuntusudur. Bu problemlərin yaranmasına səbəb olan psixoloji amillərdın biri təcrübəsizlikdir. Erkən boşalma hallarının ən önəmli səbəbi boşalma idarəsinin öyrənilməmiş olmasıdır. Kişilər cinsi həyatlarının əvvələrində boşalmanı idarə edə bilmirlər. Əlavə olaraq həyəcan, təlaş, ifşa olunma hissi, uyğun olmayan mühitlər boşalma idarəsinin öyrənilməsini çətinləşdirir. Kişinin təcrübəsi artıqca və rahatlaşdıqca boşalmanı idarə etməyi öyrənir, lakin hər kəs boşalmanı idarə etməyi öyrənə bilmir və bu da gələcəkdə erkən boşalma probleminə səbəb olur. Passiv həyat yoldaşı amili də erkən boşalma və istəksizliyin yaranma səbəblərindəndir. Qadınların böyük bir qismi cinsi münasibət müddətində hərəkətsiz qalır və ya sevişməyə

çox az qatılırlar. Kişilərin böyük əksəriyyəti həyat yoldaşının aktiv olmasından narahat olsa belə, onları razı saldığını görmək istəyir. Qadının passivliyi kişinin təhrik olmasını və istəyini azaldır və ereksiya olmama, erkən boşalma və istəksizliyə səbəb olur. Erkən boşalma probleminin yaranma səbəblərindən biri kimi passivlik və çəkingənliyi də nəzərə almaq lazımdır. Bəzi erkən boşalma hallarında nəzərəçarpan passivlik problemi də vardır. Belə vəziyyətlərdə insanlar aqressiyalarını əsasən passiv şəkildə biruzə verirlər. Hər hansı bir şeyi etiraz etmək və ya yox deməklə bağlı problemləri olan bu kişilər görünüşdə qəbul etdikləri şeyləri qarşı tərəfi xəyal qırıqlığına məruz qoyacaq şəkildə edirlər. Bu kişilər əsasən dominant və kişi xüsusiyyətləri olan qadınları yoldaş olaraq seçirlər. Bir tərəfdən onların hər istədiyinə "hə" deyib tabe olur, digər tərəfdən isə passiv olaraq müqavimət göstərirlər. Erkən boşalma isə bu passiv müqavimətin və qarşı tərəfi xəyal qırıqlığına uğratmanın bir növüdür. Həmçinin qatı dini və əxlaqi inanclar da bu problemin yaranma səbəblərindəndir. Kişilərdə dini inanclar və qatı əxlaqi dəyər cinsi münasibətlərə çox da təsir göstərmir, çünki hər bir din və inancda kişinin cinsi istək hiss etməsi və cinsi aktı yerinə yetirməsi normal olaraq qəbul olunur. Lakin qatı dini inanclar kişidə olan fərqli cinsi həzz alma, cinsi istəyin azalması və orqazm problemlərinə səbəb ola bilir. Təcavüz və travmalardan da danışmaq lazımdır. Amerikada aparılan araşdırma zamanı müəyyən olunmuşdur ki, yeniyetməlik dövründə oğlanların 4,8%-i cinsi münasibətdə olmuşdur. Bu münasibətlərin 60%-ni isə homoseksual cinsi münasibət təşkil etmişdir. Uşaq vaxtı təcavüzə məruz qalan uşaqların 10%-ində cinsi funksiyalar pozulmuşdur. Ən çox rast gəlinən pozuntu isə ereksiya pozuntusu və cinsi istəyin azalmasıdır. Partnyorda cinsi funksiya pozuntusu erkən boşalmanın ən böyük səbəblərindəndir. Qadının orqazm ola bilməməsi və ya istəksizliyi kişidə erkən boşalma və ya erektil disfunksiyaya səbəb olur. Masters və Jhonsonun tədqiqatlarına əsasən, kişilər cinsi münasibətlərinin 50%-ində partnyorunu orqazm olanadək, boşalmanı gecikdirə bilmirlərsə, bunu erkən boşalma olaraq qəbul etmək mümkündür [3, s.90]. Cinsi terapiyaya vaginizm problemi ilə müraciət edən qadınların həyat yoldaşlarının 40%-ində cinsi funksiya pozuntusu olduğu müəyyən edilmişdir. Bəzən vaginizm problemi olan xanımın yoldaşı cinsi münasibət yarada bilmədiyi üçün həyəcan, təşviş keçirir və nəticədə sərtləşmə pozuntusu inkişaf edir. Bu kimi hallarda qadında problem görünmədiyi üçün, yalnız kişi tibbi və psixoloji dəstək alır, qadın isə müalicə olunmadığı üçün bu seanslar uğursuz bitir.

**4.Cinsi istəyin azalmasına səbəb olan amillər**

Cinsi istəyin azalması və ya tamamilə olmamasına bioloji amillərin səbəb olduğu düşünülürdü, lakin Meston və Bradford (2007), Segraves və Woodard (2006) tərəfindən aparılan araşdırmalar burada psixoloji amillərin də mühüm rol oynadığını göstərmişdir [5, s.830]. Bunlardan biri həyat yoldaşına qarşı marağın itirilməsidir. Həyat yoldaşları arasında bir-birinə marağın itirilməsi cinsi funksiyaların pozulmasına səbəb olur. Bu dəyişiklik həm təbii olaraq, yaş və kilo artması, həm də zaman keçdikcə qadının övlad sahibi olması və onun rolunun dəyişərək ana roluna keçməsi ilə baş verir, nəticədə kişilərdə xanımlarına qarşı cinsi istəyin azalmasına səbəb olur. Psixiatrik narahatlıqlar cinsi istəyin azalmasına və ya tamamilə itirilməsinə səbəb olan əsas amillərdəndir. Qadınlarda olduğu kimi kişilərdə də psixiatrik narahatlıqlar cinsi istəyin azalmasına və ya tamamilə olmamasına gətirib çıxarır. Cinsi istəyin azalmasına təsir edən psixiatrik pozuntunlar əsasən təsviş pozuntusu, cinsi münasibətlərlə bağlı olan obsessiv-kompulsiv pozuntu, panik atak, post travmatik stress pozuntusu və s. Cinsi istəyin azalması psixiatrik bir narahatçılıq və ya bu səbəbdən qəbul edilən dərmanlardan qaynaqlanırsa, istəksizlik dərman qəbulu dayandıqdan sonra aradan qalxmalıdır və ya bu dərmanlar fərqli tərkibli dərmanlarla əvəz oluna bilər. Psixiatrik narahatlıq aradan qalxdıqdan sonra cinsi istəklər düzəlməzsə cinsi terapiyaya müraciət oluna bilər. Bu problemdən danışarkən cinsi kimlik və meyl pozuntuları mütləq qeyd edilməlidir. Bəzi kişilər homoseksual olmalarına baxmayaraq evlənir və ya qadınlarla münasibət qurular, ətraf mühitdən və ya ailəsindən gizlənmək məqsədi ilə bu yolu seçənlər ilk başlarda fiziki təhrikedicilər və fantaziyaların köməyi ilə qadınla cinsi münasibət qurmağı bacarırılar. Həyat yoldaşı ilə cinsi münasibətdə olarkən bir kişini düşünərək orqazm ola bilərlər, lakin bir müddət sonra qadınla münasibətdə olma istəyi azalır və tamamilə yox olur. Bəzən homoseksual olan bu cür kişi bunu qəbul etmir və bu duyğuları basdırmaq üçün əksər hallarda sevgili dəyişdirən kişi roluna bürünür. Lakin evləndikdən və bir qadınla uzun müddət birlikdə olduqdan sonra cinsi istəyini itirir. Bəzi kişilərin homoseksual tərəfi heteroseksual bir münasibətə maneə olacaq qədər güclü deyil, lakin kişi xüsusiyyətli, güclü və dominant qadınlarla birlikdə olmaq məcburiyyəti hiss edə bilirlər və ya cinsi münasibətləri anal yolla qururlar. Onu da qeyd etmək lazımdır ki, bu problemlərin yaranmasında cütlüklər arasında yaxınlıq duyğularının yaranması da vasitə olur. Ciddi şizoid, obsessiv və narsistik şəxsiyyət pozuntusu olan kişilərdə ilk dövrlərdə cinsi münasibətlərdə problem olmadığı halda, yaxınlıq və bağlılıq duyğusunun yaranması ilə cinsi istəkdə azalma ortaya çıxa bilir. Yaxınlıq problemləri istək pozuntusuna səbəb olduğu kimi kişilərdə orqazm və gec

boşalmanın əsas səbəblərindəndir. Cinsi istəksizliyin yaranmasınsa səbəb olan amillərdən danışarkən evlilikdəki mübahisələri qeyd etməliyik. Qadınlar kimi kişilərdə də ailədaxili mübahisələr və münasibətlərdəki, pozuntulara cinsi istəksizlik olaraq cavab verə bilir. Xüsusilə aqressiya və inciklik partnyorla həzz paylaşmaq istəyini azaldır. Bəzən evlilik problemləri depresiya və təşvişə səbəb olduğu üçün cinsi istək pozuntusuna səbəb ola bilir. Ailə münasibətlərində cinsəllik və sevgi ümumi harmoniya içindədir və hər hansı bir sferadakı pozuntu digərinə də təsir göstərir. Bancroft cinsi funksiya pozğunluğunun qadınların 24%-i, kişilərin isə 17%-ində qarşılıqlı münasibətlərdəki, pozuntularla bağlı olduğunu müəyyən etmişdir. Bu da psixoloji faktorların insanların ailə və ailədaxili cinsi münasibətlərində nə qədər böyük rol oynadığını sübut edir.

**5.Nəticə**

Məqalədə son dövrlərdə dünyada və ölkəmizdə androloji problemlərin statistik göstəriciləri müəyyən edilmiş, son dövrlərdə androloji problemlərə daha çox rast gəlindiyi məlum olmuşdur. Bu problemlərin yaranma səbəbləri dünya və yerli ədəbiyyatlarda araşdırılmışdır. Səbəblər həm bioloji, həm də psixoloji ola bilir. Məqalədə bu problemlərin yaranmasının psixoloji səbəbləri araşdırılmışdır. Burada bir sıra psixoloji faktorlar vardır və hər bir faktor müxtəlif androloji problemin yaranmasına səbəb olur. Ən çox rast gəlinən erkən boşalma və erektil disfunksiya, cinsi münasibətlər qurmaqda çətinliklər və cinsi istəyin azalması problemidir ki, bunlarında yaranmasında müxtəlif psixoloji əsaslar durur, lakin qeyd etməliyik ki, psixoloji əsaslarla yaranan androloji problemlər bununla kifayətlənmir və olduqca rəngarəngdir. Məqalədə hər bir problemin yaranmasında rol oynayan amillərdən geniş bəhs edilmiş, həyəcan, stress, təşviş, aqressiya və digər amillərdən hər birinin kişi psixologiyasına təsir etdiyi, nəticədə müxtəlif androloji problemlər yaratdığı göstərilmişdir.

**ƏDƏBİYYAT**

1. (2006). Cinsel Yaşam ve Sorunları, Cinsel Eğitim Tedavi ve Araştırma Derneği. 71 s
2. DSM-5. (2013). (*Diagnostic and statistical manul of mental disorders*) American psychiatric association.
3. Erman, A.G. (1998). *Psikojenik erektil disfonksiyonların boşanmalara olan etkisin adli tıbbi psikososyel yönlerden incelenmesi*. İstanbul, 216 s
4. Worldsexualhelth.net
5. Butcher, J. N., Mineka, S., & Hooley, J. M. (2013). *Anormal Psikoloji.* İstanbul: 1197 s.

6. Aşcı, R., Çayan S., Erdemir, F., Orhan, İ., Yaman Ö., Usta, M. F., Kendirci, M., Ekmekçioğlu O., & Kadıoğlu A. (2013). *Erkek Üreme Sistemi Hastalıkları ve Tedavisi*. İstanbul. 921 s.
7. Population Division of the Department of Economic and Social Affairs of the United Nations Secretariat. World Population prospects: the 2008 revision. Available at http://www.un.org/esa/population/.Retrived 09/30/11.

## Роль психологических аспектов в образовании андрологических проблем

**Илькин Алиев***

**Абстракт.** В статье приведены общие статистические данные о сексуальных проблемах, а также рассмотрены факторы, влияющие на сексуальные отношения между супружескими парами. В исследовании обсуждены причины, влияющие на развитие андрологических проблем у мужчин, и расследованы психологические проблемы, играющие особую роль в возникновении данных ситуаций.

**Ключевые слова:** андрология, андрологические проблемы, половой акт, причина половых жалоб.

* Докторант кафедры «Психологии» Бакинского Государственного Университета; Баку, Азербайджан
E-mail: psixoloq.aliyev94@mail.ru
https://orcid.org/0000-0002-7516-4857

**Цитировать статью:** Алиев, И. [2022]. Роль психологических аспектов в образовании андрологических проблем. *Журнал «Metafizika», 5*(2), c.29-36.

***История статьи:***
*Статья поступила в редакцию: 04.03.2022*
*Отправлена на доработку: 11.04.2022*
*Принята для печати: 03.06.2022*

## The role of psychological aspects in the formation of andrological problems

**Ilkin Aliyev***

**Abstract.** The article provides general statistics on sexual problems, and discusses the factors that affect sexual relations between couples in marriage. Factors influencing the development of andrological problems in men were discussed. Psychological problems that play a special role in the emergence of these problems have been widely discussed.

**Keywords**: andrology, andrological problems, sex, the cause of sexual disorders.

### REFERENCES

1. (2006). Cinsel Yasham ve Sorunlari, Cinsel Eghitim Tedavi ve Arashtirma Derneghi. 71 s
2. DSM-5. (2013). (*Diagnostic and statistical manul of mental disorders*) American psychiatric association.
3. Erman, A.G. (1998). *Psikojenik erektil disfonksiyonlarin boshanmalara olan etkisin adli tibbi psikososyel yonlerden incelenmesi.* Istanbul, 216 s
4. Worldsexualhelth.net
5. Butcher, J. N., Mineka, S., & Hooley, J. M. (2013). *Anormal Psikoloji.* Istanbul: 1197 s.
6. Ashcı, R., CHayan S., Erdemir, F., Orhan, I., Yaman O., Usta, M. F., Kendirci, M., Ekmekchioghlu O., & Kadioghlu A. (2013). *Erkek Ureme Sistemi Hastaliklari ve Tedavisi*. Istanbul. 921 s.
7. Population Division of the Department of Economic and Social Affairs of the United Nations Secretariat. World Population prospects: the 2008 revision. Available at http://www.un.org/esa/population/.Retrived 09/30/11.

* Ph.D student of the Department of Psychology of Baku State University; Baku, Azerbaijan
E-mail: psixoloq.aliyev94@mail.ru
https://orcid.org/0000-0002-7516-4857
**To cite this article:** Aliyev, I. [2022] The role of psychological aspects in the formation of andrological problems. *“Metafizika” journal, 5*(2), pp.29-36.

***Article history:***
*Received: 04.03.2022*
*Accepted: 03.06.2022*